# Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən festival



**Azərbaycan xalqının son iki yüzillik tarixində ən şanlı hadisə baş verdi. 2020-ci ilin payızında işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsi qəhrəman Azərbaycan Ordusunun möhtəşəm Zəfəri ilə bitdi. 44 günlük müharibədə qazandığımız qələbə Qarabağın və Şərqi Zəngəzurun otuz ilinə yaxınlaşmaqda olan işğalına son qoydu. Məğlubiyyətin ağır yükünü qəlbimizdən atdıq. Qalib xalq olduq. Bu günlərdə artıq ilk sakinlərini qarşılamış qədim qala şəhərimizdə - Şuşada keçirilən möhtəşəm tədbirlərə də Azərbaycan xalqının bu əbədi qalibiyyət duyğusunun qüruru və sevinci qarışıb.**

Mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak etdilər. Dövlətimizin başçısı tədbirdə çıxışında Azərbaycanın islam dünyasının birləşməsi, islam həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərdiyini qeyd etdi. Bildirdi ki, ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir: "Təbii ki, Şuşa şəhərinin islam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq".

Dövlətimizin başçısı vurğuladı ki, Şuşasız yaşadığımız 28 ili həm şuşalılar, həm bütün Azərbaycan xalqı mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atıldığını - ilk sakinlərin uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşdıqlarını diqqətə çatdıran Prezident İlham Əliyev Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər getdiyini qeyd etdi. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, Şuşa, sözün əsl mənasında, dirçəlir. İşğalçılar tərəfindən tamamilə dağıdılmış bir çox tarixi və dini abidələr bərpa olunub və olunmaqdadır: "Hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır".

Dövlət başçısı qürurla qeyd etdi ki, bu işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi: "Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz - Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik. Qan tökərək, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir".

Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərməyin heç bir mənası yoxdur. Xalqımız Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirir".

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının da proqramı maraqlı və zəngin oldu. Otuz beş yaşını qeyd edən festival Şuşa və Laçın şəhərlərində mayın 13-dək davam etdi.

Qeyd edək ki, ilk "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ilin mayında keçirildi. Festival Şuşa şəhərində məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar düzənləndi. Konsertlər Cıdır düzü meydançasında tikilən 7 məkanda təşkil edildi. 100-ə yaxın insanın qatıldığı I "Xarıbülbül" Musiqi Festivalının iştirakçıları arasında yerli ifaçılarla yanaşı, Qazaxıstan, Qırğızıstan, Başqırdıstan, Litva və Belarusdan da musiqi qrupları var idi. Sonrakı illərdə festival Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, Hollandiya, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və SSRİ-nin müttəfiq respublikalarının iştirakı ilə düzənləndi.

1990-cı ildən beynəlxalq status daşıyan "Xarıbülbül" Musiqi Festivalı yalnız Azərbaycanda deyil, keçmiş SSRİ-də mühüm mədəniyyət tədbirlərindən biri sayılırdı. 1991-ci ildə təşkil olunan III "Xarıbülbül" Musiqi Festivalında 25 ölkədən təxminən 300 nəfər iştirak etmişdi. Növbəti - o zamanadək keçirilənlərin ən böyüyü olacaq IV "Xarıbülbül" Musiqi Festivalı 1992-ci il mayın 15-də başlamalı idi. Tədbirdə dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Həmin il Qarabağın digər yerləri kimi, Şuşa üçün də ağır, dəhşətli il oldu. 1992-ci il mayın 8-də işğalçı, təcavüzkar ermənilər şəhəri ələ keçirdilər. Qəsbkar ermənilərin işğal səbəbindən "Xarıbülbül" Musiqi Festivalı Şuşada təşkil edilmədi. Festival qısa müddətdə Ağdam şəhərində, İmarətdə düzənləndi.

Nəhayət ki, yağıların yağmaladıqları yurdlarımızın azadlığa qovuşması ilə Azərbaycan tarixinin möhtəşəm günlərinə qədəm qoydu. İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə Şərqi Zəngəzur və Qarabağ ərazilərində, eləcə də Şuşada sürətli və geniş tikinti-bərpa, quruculuq işlərinə başlanıldı. 2021-ci ilin yanvarında dövlət başçısı İlham Əliyev Şuşada yenidən "Xarıbülbül" festivalının keçirilməsinin vacibliyini vurğuladı, bu folklor festivalının yaxın vaxtlarda yenidən keçirilməsinin zəruriliyini bildirdi.

Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri ölkəmizin mədəniyyət paytaxtı elan edildi. Bu sərəncamla "Xarıbülbül" festivalı və Vaqif Poeziya Günləri də bərpa olundu.

Azərbaycanın musiqi məbədi Şuşa şəhəri Ermənistanın işğalından azad olunduqdan sonra, 2021-ci il mayın 12-si və 13-də ilk dəfə "Xarıbülbül" festivalı düzənləndi. 2022-ci il may ayının 12-14-ü arası Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirildi. VI "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı isə Şuşa şəhəri Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildiyi bir ildə keçirildi. 2023-cü ilin 9-11 may tarixlərində baş tutan festival TÜRKSOY-a daxil olan dövlətlər, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivlərinin iştirakı ilə yadda qaldı.

Şuşa şəhəri budəfəki - VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına həm də "İslam dünyasının mədəniyyət paytaxtı" kimi evsahibliyi edir. Dövlət başçısı İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzaladı.

Beynəlxalq Musiqi Festivalına Cıdır düzündə "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış konserti ilə start verildi. Builki festivalın iştirakçıları arasında, eləcə də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer aldı. Festivalda Azərbaycan ilə yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyə təmsil olundu. VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı möhtəşəm mədəniyyət hadisəsinə çevrildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.11.